***Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunan forumdakı çıxışında və müzakirələr zamanı səsləndirdiyi fikirlərdə ölkə həyatının bir çox sahələrində, eləcə də iqtisadiyyatda mövcud vəziyyəti dəyərləndirdi. Dövlətimizin başçısı bugünkü inkişafa nail olmaq üçün ötən 18 ildə çox iş görüldüyünü, genişmiqyaslı layihələr gerçəkləşdirildiyini, həm də bütün bunların düzgün strategiya əsasında reallaşdırıldığını diqqətə çatdırdı. Dövlətimizin başçısı daha sonra o zaman–müstəqilliyimizin ilk illərində iqtisadiyyat anlayışının belə ortaya gəlmədiyini, bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olmadığını, özəl sahibkarlığın yeni yarandığını vurğuladı.***

# Dördüncü Sənaye İnqilabının çağırışları diqqətdə saxlanılır

Ölkə rəhbəri həmin dövrü xatırladaraq dedi: "Dövlət qurumları yeni idarəetmə üsuluna yiyələnə bilməmişdilər. İqtisadi tənəzzül hər yerdə özünü büruzə verirdi və iqtisadi gələcəyimiz də prinsipcə sual altında idi. Neft-qaz kontraktları təzəcə imzalanmışdı. 1994-cü ildə bax, bu salonda, bax, bu yerdə "Əsrin kontraktı" imzalanmışdı və hamımıza yatağı üzrə kontraktın imzalanması da əlavə ümidlər verdi, amma Gənclər Günü təsis ediləndə, – 25 il bundan əvvəl, – əlbəttə ki, bu layihələrin ölkəmizə nə dərəcədə xeyir verəcəyini heç kim proqnozlaşdıra bilmirdi".

Belə bir şəraitdə ulu öndər Heydər Əliyev yenidən xalqın təkidi ilə hakimiyyətə gəldi. Dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışın-



böyük ümidlər vermişdi. Ancaq o vaxt bu layihənin icrasını proqnozlaşdırmaq, əlbəttə ki, mümkün deyildi. Ümidlər var idi, amma əminlik yox idi. 1996-cı ildə "Şahdəniz" qaz

dan sonra həyata keçirilən kompleks islahatlar nəticəsində müstəqil Azərbaycanın iqtisadi inkişafı təmin olundu.

**(ardı 4-cü səhifədə)**

Xalq qəzeti.- 2022.- 4 fevral.- S.1;4.

# Dördüncü Sənaye İnqilabının çağırışları diqqətdə saxlanılır

(əvvəli 1-ci səhifədə)

İqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatlara başlanıldı. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq sinfi formalaşdı. Bunlarla bərabər, neft-qaz sektorunda gerçəkləşdirilən genişmiqyaslı tədbirlər iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və bundan sonra davamlı iqtisadi artım nəzərə çarpmağa başladı, iqtisadiyyatın bütün sahələrində islahatlar aparıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Qanunvericiliyin təkmilləşdirilməsinə mühüm önəm verildi və xarici investorların ölkəyə axınını sürətləndirmək, onların səmərəli fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, özəl bölməni inkişaf etdirmək, habelə milli iqtisadiyyatın beynəlxalq iqtisadi sistemə uyğunlaşdırılmasını, inteqrasiyasını gerçəkləşdirmək məqsədilə mükəmməl qanunvericilik bazası yaradıldı.

Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən ulu öndərin müstəqil gənc respublikamıza rəhbərliyi dövründə gördüyü əvəzsiz işlər Azərbaycanı çox qısa müddətdə beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi. O vaxt Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi, respublikamız Ermənistanla müharibə şəraitində idi. Bu risk doğuran amillər böyük dövlətləri və şirkətləri Azərbaycana investisiya yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Ümummilli liderin beynəlxalq arenadakı şəxsi nüfuzu ilə tərəddüdlərə son qoyuldu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqaviləsi imzalandı. “Əsrin müqaviləsi” adlandırılan bu saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, dünya xəritəsindəki mövqeyini daha da möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası daha sonra yeni dövrün çağırışlarına uyğun olaraq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi.



Dünyada son illər baş verən qlobal iqtisadi böhranların, arası kəsilmədən davam edən, dərinləşən və əhatə dairəsi getdikcə genişlənən siyasi çaxnaşmaların təsirinin Azərbaycandan da yan keçmədiyi bir şəraitdə ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunması ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun bu gün Prezident İlham Əliyev tərəfindən dövrün tələbinə uyğunlaşdırılaraq mükəmməl səviyyədə davam etdirilməsi sayəsində mümkün olub. Ötən 18 il ərzində ölkənin makroiqtisadi sabitliyi nəinki qorunub saxlanılıb, eyni zamanda, iqtisadi potensialı daha da gücləndirilib.

Beləliklə, istər ümummilli liderin hakimiyyəti dönəmində, istərsə də onun layiqli varisi Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi illərində əldə edilən uğurlar ulu öndər Heydər Əliyevin dövrün çağırışına cavab verən, zamanı qabaqlayan dahi şəxsiyyət olmasını sübuta yetirir.

Prezident İlham Əliyevin Gənclər Forumunda Dördüncü Sənaye İnqilabı dövrünün çağırışları haqqında fikirləri də ötən 18 illik bir yolun uğurlu mənzərəsini gözlərimiz önündə canlandı: “Dördüncü Sənaye İnqilabı artıq reallıqdır və biz geridə qalmamaq üçün bu istiqamətdə öz addımlarımızı atırıq. Məncə artıq iki il oldu ki, Davos Ümumdünya İqtisadi Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabının üstünlüklərini daha da açmaq, Azərbaycanda tətbiq etmək üçün və regionda bu işlərə koordinasiyanı öz üzərinə götürmək üçün müvafiq sənəd imzalandı. Yəni, o da təsadüfi deyil ki, nə üçün Davos Ümumdünya İqtisadi Forumu, – bu, bildiyiniz kimi, dünya miqyasında ən mötəbər, ən nüfuzlu forumdur və bu forumda dünyanın aparıcı ölkələrinin dövlət, hökumət başçıları iştirak edirlər. Yəni, onu bilməliyik ki, Davos səviyyəsində ikinci forum yoxdur – istər iqtisadi olsun, istər siyasi və bütün region üçün məhz Azərbaycan seçildi. Təkcə bir ölkə kimi yox, Cənubi Qafqaz və ətraf ölkələr üçün. Nə üçün? Birinci ona görə ki, bizə inam var. İkinci ona görə ki, Azərbaycan sabit ölkədir və Davos Forumunun hesabatlarında – onlar hər il dərc edilir – Azərbaycan bir çox parametrlər üzrə həmişə qabaqcıl yerlərdədir. O cümlədən, hökumətin islahatlara meyilliliyi indeksinə görə biz birinci onluqdayıq. Təsəvvür edin, dünya miqyasında bu parametrə görə birinci onluqda olmaq doğrudan da bir çox şeylərə aydınlıq gətirir…”.

Dövlətimizin başçısının forumda vurğuladığı kimi, artıq respublikamızda Dördüncü Sənaye İnqilabının çağırışlarına start verilib. Ən müasir texnologiyaların Azərbaycana gətirilməsinə, müasir metodların, üsulların tətbiqinə başlanılıb.

Hazırda işğaldan azad edilən ərazilərimizin bərpa və yenidən qurulması, həmin ərazilərdə iqtisadi inkişafın formalaşması ilə bağlı sistemli və kompleks tədbirlər həyata keçirilir və bu zaman Dördüncü Sənaye İnqilabının çağırışları diqqətdə saxlanılır. Layihələrin gerçəkləşdirilməsi zamanı müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqinə mühüm önəm verilir. Bu isə Qarabağın yaxın gələcəkdə “ağıllı region” kimi dünyada tanınacağına əlverişli şərait yaradır. Bu baxımdan, Zəngilanın Ağalı kəndində Azərbaycanda ilk dəfə “Ağıllı kənd” layihəsinin həyata keçirilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Təməli ötən il aprelin 26-da dövlətimizin başçısı tərəfindən qoyulan layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından yararlanmaqla tam izolyasiya olunan 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının inşası davam etdirilir.

“Ağıllı kənd”də müasir şəhərsalma standartları tətbiq olunacaq, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq. Burada aqrar sektorun təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək.

Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. Əkin planına əsasən, müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. “Ağıllı idarəetmə sistemi”nin data və təhlil mərkəzindən həyata keçiriləcəyi, müasir suvarma sistemlərindən istifadə olunacağı nəzərdə tutulub.

Füzuli rayonunun Dövlətyarlı kəndində də “Ağıllı kənd” layihəsi icra olunur. Layihənin təməli ötən il oktyabrın 17-də qoyulub. Yaşıl və alternativ enerjinin, “ağıllı idarəetmə” sisteminin reallaşdırılacağı “Ağıllı kənd” layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə, ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Burada, həmçinin məktəb və uşaq bağçası tikiləcək. Kəndin ətrafında isə “Ağıllı kənd təsərrüfatı” sahəsi olacaq. Beləliklə, sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün bütün zəruri işlər həyata keçiriləcək.

Dövlətyarlı kəndində xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə “Günəş paneli tarlası” salınacaq. Kənddə, həmçinin biznes layihələri də icra olunacaq. Kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Burada Köndələnçay su anbarı əsasında “Ağıllı akvakultura” sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması, eyni zamanda, quşçuluq təsərrüfatının da yaradılması nəzərdə tutulur.

***V.BAYRAMOV, “Xalq qəzeti”***